# IV BÖLMƏ
# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR

UOT: 339.56

*Elşad Yaqub oğlu MƏMMƏDOV*
*Odlar Yurdu Universiteti, “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor*
*E-mail: elsad.mammadov@oyu.edu.az*

*Aslan Cavid oğlu ƏZİMZADƏ*
*Odlar Yurdu Universiteti, “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının müəllimi*
*E-mail: ezimzade.aslan@oyu.edu.az*

*Toğrul Əlverdi oğlu FƏRZULLAYEV*
*Azərbaycan Universitetinin dissertantı*
*E-mail: togrull@gmail.com*
*10.30546/4.71.73001.2024.012*

## ÇİNDƏN AZƏRBAYCANA İXRACIN ÖLKƏNİN KOMMERSİYA MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNƏ TƏSİRLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Çindən Azərbaycana ixracın ölkənin kommersiya müəssisələrinin fəaliyyətinə təsirlərini dünya iqtisadiyyatının başlıca çağırışlarından olan COVID-19 pandemiyası çərçivəsində analiz etməkdir.

**Tədqiqatın metodologiyası** – Məqalədə induksiya, deduksiya, elmi abstraksiya, məntiqi ümumiləşdirmə, müqayisəli və statistik təhlil metodlarından istifadə edilmişdir

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Çində və Azərbaycanda qarşılıqlı ticarət ilə məşğul olan sahibkarlıq subyektləri və kommersiya müəssisələri öz fəaliyyətlərində sözügedən tədqiqatın nəticələrindən istifadə edə bilərlər.

**Tədqiqatın nəticələri** – Hesablanan ixrac intensivliyi indeksi çərçivəsində Çindən Azərbaycana ixracın mövcud vəziyyəti və potensial inkişaf istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Çindən Azərbaycana ixrac olunan mühüm növ məhsulların COVID-19 pandemiyası çərçivəsində sistemli analiz edilməsi və iki ölkə arasında ixrac intensivliyi indeksinin hesablanmasıdır.

***Açar sözlər: sahibkarlıq subyektləri, ixrac intensivliyi indeksi, COVID-19, mühüm növ məhsul, logistika, kommersiya müəssisələri***

### *Giriş*

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələr SSRİ-nin dağılması nəticəsində Azərbaycan Respublikası müstəqillik qazandıqdan dərhal sonra 1992-ci ildə formalaşmışdır [1]. Bu illər ərzində iki ölkə arasında iqtisadi əlaqələr də inkişaf etmişdir. Çin üçün Azərbaycan olduqca önəmli partnyor hesab edilə bilər. Belə ki, Azərbaycan önəmli beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşir. Bu isə Xəzər dənizindən Qərbə qədər nəqliyyat dəhlizlərinin formalaşmasında mühüm rol oynamış Azərbaycanı Çin üçün sözügedən istiqamətdə başlıca strateji tərəfdaş mövqeyinə gətirməkdədir [2].

Qeyd etmək lazımdır ki, Azərbaycan “Bir Kəmər – Bir Yol” layihəsində ən yüksək potensiala malik ölkələrdən biridir. Belə ki, Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun üzvüdür. Bu marşrut Yeni İpək Yolunun şimal marşrutunun alternativi olmaqla yanaşı Çindən Xəzər

dənizinə, oradan isə Azərbaycana, Gürcüstana, Türkiyəyə və nəticə etibarilə Avropaya doğru irəliləyən, Asiya və Avropa arasında yükdaşımaları təmin edən önəmli bir nəqliyyat marşrutudur [3].

2015-ci ildə Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqi haqqında sənədin imzalanması, eyni zamanda həmin ildə Azərbaycana Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı statusunun verilməsi Azərbaycanın Çin ilə ikitərəfli iqtisadi əməkdaşlıq proseslərində, eyni zamanda "Bir kəmər – Bir yol" layihəsində ciddi şəkildə marağının olması kimi dəyərləndirilə bilər [4]. Digər önəmli məsələ isə "Bir kəmər – Bir yol" layihəsinin reallaşdırılması və layihənin iştirakçı ölkələrinin iqtisadi inkişafına dəstək göstərilməsi məqsədilə formalaşdırılan Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əlaqədardır. Belə ki, 2015-ci ildə Azərbaycan Asiya İnfrastruktur İnvestisiya Bankının səhmdarlarından biri olmuşdur ki, bu da iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşməsi üçün önəmli zəmindir [5]. Hazırda Azərbaycanın Asiya İnfrastruktur İnvestisiya Bankı ilə dayanıqlı münasibətləri formalaşmaqdadır. Belə ki, Asiya İnfrastruktur İnvestisiya Bankı Azərbaycan da daxil olmaqla 7 ölkənin nəqliyyat, enerji və infrastruktur tikintisini dəstəkləmək məqsədi daşıyan 9 layihəyə 1,7 milyard dollar kredit dəstəyi vermişdir [6].

Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlığın yeni formatı isə məhz Bakı-Tbilisi-Qars layihəsinin reallaşması ilə bağlıdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolundan Türkiyə, Rusiya, Çin, Gürcüstan, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Tacikistan və Özbəkistana yüklərin daşınması üçün istifadə olunur. Eyni zamanda qeyd olunmalıdır ki, Bakı-Tbilisi-Qars dəmiryolu Avropa ilə Asiya arasında yükdaşımaları həyata keçirməkdədir. Birinci mərhələdə Bakı-Tbilisi-Qars dəmir yolu ilə 1 milyon sərnişin və 6,5 milyon ton yük daşınması nəzərdə tutulur. 2034-cü ilə qədər tutumun 3 milyon sərnişin və 17 milyon tona çatdırılması nəzərdə tutulur [7].

Bu gün yeni texnoloji ukladın liderlərindən biri məhz Çindir. Bu uğurun arxasında bir neçə faktorlar dayanır ki, onlardan da biri Çin rəhbərliyinin Qərb maliyyə institutlarının neoliberal tövsiyələrinə əməl etməyərək özünün strateji planlaşdırma institutlarını ehtiyatla inkişaf etdirməsi və maliyyə sistemində qabaqlayıcı inkişafı təmin etmək məqsədilə valyuta nəzarətini saxlamasıdır. Məhz bu sistem Çinin maliyyə sistemini spekulyasiyalardan qorumuş və milli iqtisadiyyatın dayanıqlı inkişafını stimullaşdırmışdır [8].

Sözügedən mütərəqqi iqtisadi siyasət özünü COVID-19 pandemiyası çərçivəsində də göstərmişdir. Belə ki, dünya iqtisadiyyatında nəqliyyat-logistika və istehsal zəncirinin böhranı ilə nəticələnən, eyni zamanda dünya təsərrüfat sistemində formalaşmış struktur böhranı dərinləşdirən COVID-19 pandemiyası beynəlxalq iqtisadi münasibətlər kontekstində müasir çağırışlar formalaşdırmışdır. Bu çağırışlar Çin iqtisadi inkişaf modelinin uğurunu bir daha sübut edərək Qərbin iqtisadi təşkilatlarının fiaskosunu səciyyələndirmişdir ki, bu da alterqlobalizasiya və çoxqütblü dünya proseslərinin transformasiya olduğu dönəmdə olduqca önəmli vektorlar kimi qiymətləndirilməlidir.

Hadisələri xatırlatmaq məqsədilə qeyd etmək lazımdır ki, Çinin səhiyyə bloku 31 dekabr 2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatına Wuhanda mənşəyi naməlum pnevmoniya hadisələrinin baş verdiyini bildirdi. Yanvarın 7-də Çin rəsmiləri səbəb kimi yeni növ koronavirus müəyyən etdi [9]. COVID-19 pandemiyası çərçivəsində Çin iqtisadiyyatını təhlil etsək görərik ki, Çin qısa zaman kəsiyində pandemiyanın yarada biləcəyi riskləri minimuma endirmiş və iqtisadiyyatı müsbət impulslar ilə müşahidə olunmuşdur. Bu isə bir daha Çinin yarana biləcək yeni tipli iqtisadi böhranlardan daha dayanıqlı və effektiv şəkildə çıxacağını deməyə imkan verməkdədir. Təbii ki, bunun nəticəsi olaraq Çin iqtisadiyyatında Qərb ölkələrinin iqtisadiyyatları ilə müqayisədə daha yüksək artım tempi formalaşacaqdır [10].

COVID-19 pandemiyası dövründə Çin iqtisadiyyatının dayanıqlılığında bir problem görünməsə də müəyyən zəruri texniki maneələr səbəbindən xarici ticarət, o cümlədən ixrac və idxal əlaqələrində hər hansısa bir təsirin olması qaçılmaz amildir. Bu səbəbdən də təhlilimizin əsas istiqaməti COVID-19 pandemiyasının Çin Xalq Respublikasından Azərbaycan Respublikasına ixraca təsirini analiz etməkdir.

***COVID-19 pandemiyası zamanı Çindən Azərbaycana ixrac edilən mühüm növ məhsulların təhlili***

İlk olaraq tədqiqatı kompleks şəkildə analiz edə bilmək üçün Çindən Azərbaycana reallaşan mühüm növ məhsulların ixracına nəzər salacağıq. Araşdırmamızda əsas hədəf COVID-19 pandemiyasının Çindən Azərbaycana ixraca təsiri olduğu üçün istifadə edəcəyimiz il aralıqları məhz 2018-2020-ci illər olacaqdır. Çindən Azərbaycana bütövlükdə olduqca çox məhsul ixrac edilməkdədir. Bu səbəbdən tədqiqatı daha rahat təhlil etmək üçün bu hissədə yalnız Çindən Azərbaycana ixrac olunan mühüm növ məhsulları analiz edəcəyik.

**Cədvəl 1.**

**2018-ci ildə Çindən Azərbaycana ixrac edilən mühüm növ məhsulların sayı və həcmi**

| № | Məhsulların adı | Miqdarı | Məbləği, min ABŞ dolları |
|---|---|---|---|
| 1. | Təzə və dondurulmuş balıq, ton | 198,7 | 421,7 |
| 2. | Təzə tərəvəz, ton | 80,7 | 60,5 |
| 3. | Təzə meyvə, ton | 590,5 | 1.061,5 |
| 4. | Çay, ton | 57,3 | 170,3 |
| 5. | Şəkərdən hazırlanan qənnadı məmulatları, ton | 58,4 | 201,4 |
| 6. | Tütün, ton | 44,1 | 184,0 |
| 7. | Dərman vasitələri, ton | 427,8 | 3.065,4 |
| 8. | Mineral gübrələr, ton | 589,9 | 638,2 |
| 9. | Sabun, ton | 181,8 | 550,8 |
| 10. | Sintetik yuyucu maddələr, ton | 406,5 | 794,0 |
| 11. | Etilen polimerləri, ilkin formada, ton | 824,9 | 825,6 |
| 12. | Plastik kütlədən borular, şlanqlar və onların fitinqləri, ton | 1.137,8 | 2.292,6 |
| 13. | Rezin şinlər, min ədəd* | 828,5 | 28.234,1 |
| 14. | Yapışdırılmış faner, min kub metr | 0,2 | 230,4 |
| 15. | Qəzet kağızı, ton | 5,9 | 7,6 |
| 16. | Ayaqqabı, min cüt* | 19.519,3 | 33.696,4 |
| 17. | Qara metallardan boru fitinqləri, ton* | 2.048,7 | 4.634,4 |
| 18. | Metal konstruksiyalar, ton | 1.545,2 | 8.004,9 |
| 19. | Qara metallardan mətbəx sobaları və cihazları, ədəd | 49.946 | 1.197,9 |
| 20. | Qara metallardan mətbəx və yeməkxana ləvazimatları, ton* | 1.871,8 | 4.013,2 |
| 21. | Məişət kondisionerləri, ədəd* | 115.126 | 26.580,8 |
| 22. | Məişət soyuducuları, ədəd* | 11.430 | 1.688,3 |
| 23. | Buldozerlər, ekskavatorlar, digər yol-tikinti maşınları, ədəd* | 161 | 12.895,7 |
| 24. | Paltaryuyan maşınları, ədəd | 48.129 | 5.371,3 |
| 25. | Hesablama maşınları, blok və qurğuları, ədəd* | 454.623 | 39.266,6 |
| 26. | Elektrik mühərrikləri, ədəd* | 104.917 | 2.071,1 |
| 27. | Elektrik transformatorları, ədəd | 46.368 | 7.912,4 |
| 28. | Elektrik akkumulyatorları, ədəd* | 3.457.524 | 4.640,9 |
| 29. | Telefon aparatları və digərləri, ədəd* | 154.683 | 1.019,5 |
| 30. | Mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, ədəd* | 578.542 | 49.331,5 |
| 31. | Televiziya qəbulediciləri, ədəd* | 90.061 | 11.575,9 |
| 32. | Traktorlar, ədəd | 111 | 2.070,4 |
| 33. | Yük avtomobilləri, ədəd | 72 | 2.996,5 |
| 34. | Xüsusi təyinatlı avtomobillər, ədəd | 33 | 3.906,5 |
| 35. | Qaz, enerji, maye sayğacları, ədəd | 82.730 | 4.231,3 |
| 36. | Oturacaq mebelləri, ədəd | 119.915 | 4.104,8 |
| 37. | Ağacdan ofis, mətbəx, yataq mebelləri, digər mebellər, ədəd | 43.150 | 4.864,3 |

*Mənbə:* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri.URL: https://www.stat.gov.az/source/trade/
** Bu məhsulun Azərbaycana ixracında Çin liderdir*

Cədvələ nəzər saldığımız zaman görürük ki, pandemiyadan öncəki son ildə Çindən Azərbaycana 37 adda mühüm növ məhsul ixrac olunmuşdur. Bu məhsullar arasında ən çox məbləğə sahib olan məhsullar mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, hesablama maşınları, blok və qurğuları, ayaqqabı, rezin şinlər və məişət kondisionerləridir ki, bu məhsulların ümumi ixrac dəyərləri müvafiq olaraq 49.331,5 min, 39.266,6 min, 33.696,4 min, 28.234,1 min və 26.580,8 min ABŞ dollarıdır. Digər tərəfdən isə 2018-ci il üzrə Çin Azərbaycana ixrac olunan 13 məhsul üzrə liderliyini qorumaqdadır. Bu məhsullar televiziya qəbulediciləri, telefon aparatları, elektrik akkumulyatorları, elektrik mühərrikləri, hesablama maşınları, blok və qurğuları, buldozerlər, ekskavatorlar, digər yol-tikinti maşınları, məişət soyuducuları, məişət kondisionerləri, qara metallardan mətbəx və yeməkxana ləvazimatları, qara metallardan boru fitinqləri, ayaqqabı və rezin şinlərdir. İndi isə COVID-19 pandemiyasının ilkin başlanğıcı olan 2019-cu ili təhlil edək.

**Cədvəl 2.**

**2019-cu ildə Çindən Azərbaycana ixrac edilən mühüm növ məhsulların sayı və həcmi**

| № | Məhsulların adı | Miqdarı | Məbləği, min ABŞ dolları |
|---|---|---|---|
| 1. | Təzə və dondurulmuş balıq, ton | 270,8 | 577,1 |
| 2. | Təzə tərəvəz, ton | 185,6 | 209,4 |
| 3. | Təzə meyvə, ton | 681,8 | 1.246,6 |
| 4. | Çay, ton | 196,0 | 471,9 |
| 5. | Düyü, ton | 1.693,1 | 896,1 |
| 6. | Tütün, ton | 134,2 | 550,1 |
| 7. | Dərman vasitələri, ton | 189,9 | 1.841,0 |
| 8. | Sabun, ton | 186,4 | 560,0 |
| 9. | Sintetik yuyucu maddələr, ton | 627,3 | 985,9 |
| 10. | Etilen polimerləri, ilkin formada, ton | 556,2 | 702,9 |
| 11. | Propilen polimerləri, ilkin formada, ton | 163,5 | 145,4 |
| 12. | Vinilxlorid polimerləri, ilkin formada, ton | 100,4 | 94,2 |
| 13. | Plastik kütlədən borular, şlanqlar və onların fitinqləri, ton | 1.184,3 | 2.508,7 |
| 14. | Rezin şinlər, min ədəd* | 1.157,3 | 40.535,5 |
| 15. | Ayaqqabı, min cüt* | 19.819,9 | 38.686,4 |
| 16. | Soyuq yayılmış polad prokatı, ton | 242,9 | 635,4 |
| 17. | Qara metallardan boru fitinqləri, ton* | 1.641,6 | 4.524,4 |
| 18. | Metal konstruksiyalar, ton | 8.784,9 | 20.176,8 |
| 19. | Qara metallardan mətbəx sobaları və cihazları, ədəd | 61.694 | 1.326,6 |
| 20. | Qara metallardan mətbəx və yeməkxana ləvazimatları, ton* | 1.876,8 | 5.016,4 |
| 21. | Məişət kondisionerləri, ədəd* | 158.008 | 35.903,9 |
| 22. | Məişət soyuducuları, ədəd | 9.010 | 1.462,8 |
| 23. | Buldozerlər, ekskavatorlar, digər yol-tikinti maşınları, ədəd* | 152 | 12.129,0 |
| 24. | Paltaryuyan maşınları, ədəd | 41.047 | 5.688,6 |
| 25. | Hesablama maşınları, blok və qurğuları, ədəd* | 504.844 | 51.039,5 |
| 26. | Elektrik mühərrikləri, ədəd* | 179.680 | 2.236,7 |
| 27. | Elektrik transformatorları, ədəd* | 60.198 | 13.965,7 |
| 28. | Elektrik akkumulyatorları, ədəd* | 2.794.756 | 4.928,6 |
| 29. | Telefon aparatları və digərləri, ədəd* | 145.458 | 1.407,9 |
| 30. | Mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, ədəd* | 798.764 | 75.699,2 |
| 31. | Televiziya qəbulediciləri, ədəd* | 125.536 | 15.070,5 |
| 32. | Traktorlar, ədəd | 212 | 1.411,2 |
| 33. | Yük avtomobilləri, ədəd | 147 | 7.439,1 |
| 34. | Qaz, enerji, maye sayğacları, ədəd* | 215.867 | 8.690,1 |
| 35. | Oturacaq mebelləri, ədəd | 145.108 | 5.161,3 |
| 36. | Ağacdan ofis, mətbəx, yataq mebelləri, digər mebellər, ədəd | 42.477 | 3.020,5 |

*Mənbə:* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri. URL: https://www.stat.gov.az/source/trade/

** Bu məhsulun Azərbaycana ixracında Çin liderdir*

Cədvələ nəzər salarkən görürük ki, COVID-19 pandemiyasının başlanğıc ili olan 2019-cu ildə Çindən Azərbaycana 36 adda mühüm növ məhsul ixrac olunmuşdur. Bu məhsullar arasında ən çox məbləğə sahib olan məhsullar mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, hesablama maşınları, blok və qurğuları, rezin şinlər, ayaqqabı, və məişət kondisionerləridir ki, bu məhsulların ümumi ixrac dəyərləri müvafiq olaraq 75.699,2 min, 51.039,5 min, 40.535,5 min, 38.686,4 min və 35.903,9 min ABŞ dollarıdır. Eyni zamanda 2018-ci il illə müqayisədə Çindən Azərbaycana 5 adda mühüm növ məhsulun ixracı mövcud olmamışdır ki, bunlar da şəkərdən hazırlanan qənnadı məmulatları, mineral gübrələr, yapışdırılmış faner, qəzet kağızı və xüsusi təyinatlı avtomobillərdir. Digər tərəfdən isə 2018-ci il ilə müqayisədə Çindən Azərbaycana 4 adda yeni mühüm növ məhsul ixrac edilmişdir. Bu məhsullar düyü, ilkin formada propilen polimerləri, ilkin formada vinilxlorid polimerləri və soyuq yayılmış polad prokatıdır. Həmçinin 2019-cu il üzrə Çin Azərbaycana ixrac olunan 14 məhsul üzrə liderliyini qorumaqdadır. 2018-ci illə müqayisədə 2019-cu ildə Çin Azərbaycana ixrac etdiyi məişət soyuducularında öz liderliyini Rusiyaya vermişdir. Həmçinin 2019-cu ildə 2 yeni məhsul üzrə Çin liderlik qazanmışdır. Belə ki, bu ildə elektrik transformatorlarının ixracı üzrə Çin Türkiyəni, qaz, enerji, maye sayğaclarının ixracı üzrə isə Türkiyəni və Fransanı qabaqlayaraq liderlik əldə etmişdir. İndi isə COVID-19 pandemiyasının ən şiddətli dövrü sayılan 2020-ci il üzrə sözügedən məhsulları analiz edək.

**Cədvəl 3.**

**2020-ci ildə Çindən Azərbaycana ixrac edilən mühüm növ məhsulların sayı və həcmi**

| № | Məhsulların adı | Miqdarı | Məbləği, min ABŞ dolları |
|---|---|---|---|
| 1. | Təzə tərəvəz, ton | 539,1 | 701,8 |
| 2. | Təzə meyvə, ton | 909,2 | 1.784,9 |
| 3. | Çay, ton | 165,9 | 391,3 |
| 4. | Düyü, ton | 3.414,2 | 1.880,5 |
| 5. | Tütün, ton | 99,2 | 391,3 |
| 6. | Kvars, ton | 6,0 | 4,3 |
| 7. | Dərman vasitələri, ton | 651,9 | 4.839,4 |
| 8. | Mineral gübrələr, ton | 2.447,4 | 1.372,6 |
| 9. | Sabun, ton | 182,1 | 561,6 |
| 10. | Sintetik yuyucu maddələr, ton | 557,9 | 958,5 |
| 11. | Etilen polimerləri, ilkin formada, ton | 431,1 | 622,2 |
| 12. | Plastik kütlədən borular, şlanqlar və onların fitinqləri, ton | 1.043,2 | 2.243,9 |
| 13. | Rezin şinlər, min ədəd* | 824,3 | 33.672,6 |
| 14. | Ayaqqabı, min cüt* | 13.266,8 | 24.475,7 |
| 15. | Soyuq yayılmış polad prokatı, ton | 391,2 | 846,4 |
| 16. | Qara metallardan boru fitinqləri, ton* | 2.042,3 | 5.620,6 |
| 17. | Metal konstruksiyalar, ton | 1.432,7 | 3.699,7 |
| 18. | Qara metallardan mətbəx sobaları və cihazları, ədəd | 88.899 | 1.827,2 |
| 19. | Qara metallardan mətbəx və yeməkxana ləvazimatları, ton* | 1.703 | 4.185,0 |
| 20. | Məişət kondisionerləri, ədəd* | 113.505,0 | 27.281,8 |
| 21. | Məişət soyuducuları, ədəd | 7.763 | 1.481,7 |
| 22. | Buldozerlər, ekskavatorlar, digər yol-tikinti maşınları, ədəd* | 158 | 13.708,8 |
| 23. | Paltaryuyan maşınları, ədəd | 31.367 | 3.908,6 |
| 24. | Hesablama maşınları, blok və qurğuları, ədəd* | 640.337 | 96.032,8 |
| 25. | Elektrik mühərrikləri, ədəd* | 117.007 | 1.760,0 |
| 26. | Elektrik transformatorları, ədəd* | 30.645 | 1.449,2 |
| 27. | Elektrik akkumulyatorları, ədəd* | 1.783.705 | 5.601,1 |
| 28. | Telefon aparatları və digərləri, ədəd* | 90.761 | 1.006,3 |

*Cədvəl 3-ün davamı*

| | | | |
|---|---|---|---|
| 29. | Mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, ədəd* | 1.126.130 | 136.977,7 |
| 30. | Televiziya qəbulediciləri, ədəd - Rusiya | 93.577 | 11.116,9 |
| 31. | Traktorlar, ədəd | 293 | 4.215,7 |
| 32. | Yük avtomobilləri, ədəd | 95 | 3.269,9 |
| 33. | Xüsusi təyinatlı avtomobillər, ədəd | 28 | 3.436,5 |
| 34. | Qaz, enerji, maye sayğacları, ədəd* | 572.957 | 17.039,7 |
| 35. | Oturacaq mebelləri, ədəd | 106.046 | 3.660,7 |
| 36. | Ağacdan ofis, mətbəx, yataq mebelləri, digər mebellər, ədəd | 33.349 | 1.725,9 |

*Mənbə:* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri. URL: https://www.stat.gov.az/source/trade/
** Bu məhsulun Azərbaycana ixracında Çin liderdir*

Cədvələ nəzər salarkən görürük ki, COVID-19 pandemiyasının ən şiddətli ili hesab edilən 2020-ci ildə Çindən Azərbaycana 36 adda mühüm növ məhsul ixrac olunmuşdur. Bu məhsullar arasında ən çox məbləğə sahib olan məhsullar 2019-cu il ilə eyni formada qalmış və yalnız məbləğlərində dəyişikliklər müşahidə edilmişdir. Belə ki, sözügedən mobil və ya başqa simsiz rabitə şəbəkəsi üçün telefon aparatları, hesablama maşınları, blok və qurğuları, rezin şinlər, məişət kondisionerləri və ayaqqabıdır ki, bu məhsulların ümumi ixrac dəyərləri müvafiq olaraq 136.977,7 min, 96.032,8 min, 33.672,6 min, 27.281,8 min və 24.475,7 min ABŞ dollarıdır.Eyni zamanda 2019-cu il ilə müqayisədə Çindən Azərbaycana 3 adda mühüm növ məhsulun ixracı mövcud olmamışdır ki, bunlar da təzə və dondurulmuş balıq, ilkin formada propilen polimerləri və ilkin formada vinilxlorid polimerləridir. Həmçinin 2019-cu il ilə müqayisədə 2 adda mühüm növ məhsulun Çindən Azərbaycana ixracı reallaşmışdır ki, bu məhsullar da kvars və xüsusi təyinatlı avtomobillərdir. Digər tərəfdən 2019-cu il ilə müqayisədə Çin 1 məhsul üzrə ixracdakı liderliyini itirmişdir ki, bu da televiziya qəbulediciləridir. İndi isə bu 3 il üzrə Çindən Azərbaycana mühüm növ məhsul ixracının ümumi məbləğlərini təhlil edək.




***Qrafik 1. 2018-2020-ci illərdə Çindən Azərbaycana ixrac edilən mühüm növ məhsulların ümumi dəyəri və illik faiz artımı***

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri. URL: https://www.stat.gov.az/source/trade/*

Qrafikə baxdığımız zaman görürük ki, 2018-2020-ci illər ərzində Çindən Azərbaycana ixrac olunan mühüm növ məhsulların dəyəri artmışdır.Belə ki, 2018, 2019 və 2020-ci illər üzrə Çindən Azərbaycana ixrac olunan mühüm növ məhsulların dəyəri müvafiq olaraq 274.812,7 min,

366.945,4 min və 423.752,8 min ABŞ dolları olmuşdur. Lakin qrafikdə digər bir göstərici bu artımın faiz tempi ilə əlaqədardır ki, burada azalmanı görməkdəyik. İlk öncə qeyd etmək lazımdır ki, 2018 baza ili olaraq qəbul edildiyi üçün 0 faizlə başlayır. 2019-cu ildə isə Çindən Azərbaycana mühüm növ məhsulların ixracının artım tempi 33.5 faiz olmuşdursa, 2020-ci ildə bu artım 15.5 faiz olmuşdur ki bu da artım tempindəki azalmanı göstərməkdədir. Bu isə COVID-19 pandemiyasının mühüm növ məhsulların Çindən Azərbaycana ixracında müəyyən azaltma yaratdığını deməyə imkan verir.

***COVID-19 pandemiyası zamanı Çindən Azərbaycana ümumi ixracın dinamikasının təhlili***

Tədqiqatımızın bu bölməsində COVID-19 pandemiyasının Çindən Azərbaycana ümumi ixraca təsrini tədqiq etmək məqsədilə müxtəlif tədqiqat metodlarını istifadə edəcəyik. İlk olaraq 2018-2020-ci illər ərzində Çindən Azərbaycana ixracı statistik təhlil edək.




**Qrafik 2. 2018-2020-ci illərdə Çindən Azərbaycana ümumi ixrac**

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri. URL: https://www.stat.gov.az/source/trade/*

Qrafikə nəzər salsaq görərik ki, 2018, 2019 və 2020-ci illərdə Çindən Azərbaycana ümumi ixrac müvafiq olaraq 1.196.649,4 min, 1.432.151,5 min və 1.414.000,1 min ABŞ dolları olmuşdur. Pandemiyanın qızğın dönəmi olan 2020-ci ildə ümumi ixrac 2019-cu ildən 18.151,4 min ABŞ dolları az olsa da bu göstərici pandemiyadan əvvəlki dönəmdən yenə də 1.2 dəfə daha çoxdur. Digər tərəfdən burada ixrac intensivliyi indeksini də hesablamaq önəmlidir. İxrac intensivliyi indeksi aşağıdakı formada hesablanır:

$$XII = \frac{X_{ij}/X_i}{M_j/(M_w - M_i)}$$

Burada:

XII = ixrac intensivliyi indeksi

$X_{ij}$ = *i* ölkəsinin *j* ölkəsinə ixracı

$X_i$ = *i* ölkəsinin ümumi ixracı

$M_j$ = *j* ölkəsinin ümumi idxalı

$M_w$ = dünyanın ümumi idxalı

$M_i$ = *i* ölkəsinin ümumi idxalıdır [11].

Qeyd etmək lazımdır ki, bu indeksin orta dəyəri vahidə bərabərdir. Sözügedən indeksin dəyəri vahiddən böyükdürsə, bu, iki ölkə arasında ticarət axınının gözləniləndən daha böyük olduğunu göstərir. Eynilə, əgər indeks vahiddən azdırsa, bu, iki ölkə arasında ticarət axınının kifayət etmədiyini göstərir. Belə olan halda iki ölkə arasında ticarətin inkişafı üçün iqtisadi əməkdaşlıq daha

da təkmilləşdirilməlidir [12]. Tədqiqat işimizdə *i* ölkəsi olaraq Çin, *j* ölkəsi olaraq isə Azərbaycan qeyd edilmişdir.

**Cədvəl 4.**

**Müəlliflər tərəfindən 2018-2020-ci illər üçün hesablanmış ixrac intensivliyi indeksi. (Çindən Azərbaycana ixrac daxil olmaqla)**

| 2018 | 2019 | 2020 |
|---|---|---|
| 0,562872 | 0,672137 | 0,647233 |

*Mənbə: İndeks hesablanarkən Dünya Bankının statistik göstəricilərindən və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəricilərindən istifadə edilmişdir. URL: https://www.stat.gov.az/source/trade/ URL: https://data.worldbank.org/*

Cədvələ baxdığımız zaman görürük ki, Çindən Azərbaycana ixrac çərçivəsində ixrac intensivliyi indeksinin illər üzrə dəyəri 0.56 ilə 0.64 arasındadır ki, bu da hələ iki ölkə arasında ticarət əlaqələrinin tam inkişaf etmədiyini və inkişaf üçün potensialın olduğunu göstərməkdədir. Cədvəldə açıq şəkildə görünür ki, 2020-ci ildə Çindən Azərbaycana ixrac çərçivəsində ixrac intensivliyi indeksi azalmışdır. Lakin bu azalma 2018-ci il səviyyəsindən çoxdur. Hər iki göstəricidə, yəni həm Çindən Azərbaycana ixracın ümumi dəyərinin statistik təhlilində və məntiqi olaraq Çindən Azərbaycana ixrac çərçivəsində ixrac intensivliyi indeksində COVID-19 pandemiyasının sözügedən prosesə bir o qədər güclü təsirinin olmadığı görülməkdədir.

### *Nəticə*

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli iqtisadi münasibətlər, o cümlədən ticarət münasibətləri inkişaf etməkdədir.Tədqiqat işimizdə dünya iqtisadiyyatında son illər ərzində baş vermiş ən mühüm hadisələrdən biri kimi qiymətləndirdiyimiz, eyni zamanda beynəlxalq nəqliyyat-logistika və istehsal zəncirində ciddi böhran formalaşdıran COVID-19 pandemiyasının iki ölkə arasındakı ticarət münasibətləri kontekstində Çindən Azərbaycana ixraca təsirini analiz etdik.

İlk olaraq qeyd etmək lazımdır ki, bu gün Çindən Azərbaycana 40-a yaxın adda mühüm növ məhsul ixrac edilməkdədir. COVID-19 pandemiyasının bu ixracın ümumi məbləğinin azalması istiqamətində hər hansısa bir təsiri olmamışdır. Lakin mühüm növ məhsulların ixracının artım tempinə müəyyən təsirini göstərmişdir. Çünkü məhz pandemiyanın ən qızğın dövrlərində artım tempində azalma müşahidə edilməkdədir.

Digər tərəfdən, COVID-19 pandemiyası dönəmində həm Çindən Azərbaycana ixracın ümumi dəyərini, həm də Çindən Azərbaycana ixrac çərçivəsində ixrac intensivliyini analiz etdiyimizdə görürük ki, hər iki göstərici üzrə azalma müşahidə edilməkdədir, lakin bu azalma COVID-19 pandemiyasından öncəki dövrdən daha çoxdur. Bu isə onu göstərməkdədir ki, yeni növ koronovirusdan formalaşan pandemiya Çindən Azərbaycana ixraca ciddi şəkildə təsir etməmiş, ixracı çox az formada azaltsa da pandemiyadan öncəki səviyyəyə gətirməmişdir. Bu isə koronavirusun yalnız qurula biləcək ticarət əlaqələrinin potensial səviyyəyə gəlməməsinə müəyyən təsir etdiyini, Çindən Azərbaycana ixracın dayanıqlılığına isə təsir etmədiyini deməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Мокрецкий А. Ч. Китайская инициатива «Один пояс, один путь» как вектор внешнеэкономической политики Азербайджана //Китай в мировой и региональнойполитике. История и современность. – 2018. – Т. 23. – №. 23. – С. 319-335.
2. Babayev B., Ismailzade F. Azerbaijan’s Contribution to the Chinese Belt & Road Initiative. – 2020.
3. Корганашвили Л. Сотрудничество Азербайджана и Грузии в рамках китайской инициативы «поясь и путь» //goals and prospects. – 2018.

4. Мокрецкий А. Ч. Страны Закавказья в китайской стратегии «Экономический пояс Шелкового пути» //Китай в мировой и региональной политике. История и современность. – 2016. Т. 21. – №. 21. – С. 150-158.
5. Liu Y., Suk S. Influencing factors of Azerbaijan and China’s sustainable tourism development strategy under the one Belt one Road initiative //Sustainability. – 2021. – Vol. 14. – №. 1. – P. 187.
6. Guliyev V. Kuşak ve yol girişimi çerçevesinde Çin-Azerbaycan ilişkileri //APAM ÇİN çalışmaları–I. – P. 129.
7. Nazmi U. A., Sanili A. U. Ethnic Conflicts or Economic Benefits? A Media Content Analysis About the Baku-Tbilisi-Kars Railway as a Part of the Trans-Caspian Transport Corridor //Вестник Волгоградского государственного университета. Серия 4: История. Регионоведение. Международные отношения. – 2022. – Vol. 27. – №. 5. – P. 194-205.
8. Глазьев С. Ю. Стратегия опережающего развития России в условиях глобального кризиса. Экономика, 2010.
9. Schindler S., Jepson N., Cui W. Covid-19, China and the future of global development //Research in Globalization. – 2020. – Vol. 2. – 100020.
10. Глазьев С. Ю. Пандемический кризис помог укрепиться новому технологическому укладу //Научные труды Вольного экономического общества России. – 2020. – Vol. 225. – №. 5. – P. 26-35.
11. Bano S., Takahashi Y., Scrimgeour F. ASEAN-New Zealand trade relations and trade potential: Evidence and analysis //Journal of Economic Integration. – 2013. – P. 144-182.
12. Kabir S. Analysis of Bilateral Trade Between Bangladesh and China //Journal of Economics and Sustainable Development. – 2017. – Vol. 8. – №. 16. – P. 10-18.

***Эльшад Ягуб оглы МАМЕДОВ***
***Университет Одлар Юрду, заведующий кафедрой***
***«Экономика и экономические отношения»,***
***доктор экономических наук, профессор***
***E-mail: elsad.mammadov@oyu.edu.az***

***Аслан Джавид оглы АЗИМЗАДЕ***
***Университет Одлар Юрду, преподаватель***
***кафедры «Экономика и экономические отношения»***
***E-mail: ezimzade.aslan@oyu.edu.az***

***Тогрул Алверди оглы ФАРЗУЛЛАЕВ***
***Диссертант Университета Азербайджан***
***E-mail: togrull@gmail.com***

## Влияние экспорта из Китая в Азербайджан на деятельность коммерческих предприятий страны

*Резюме*

**Цель исследования** – Основной целью исследования является анализ влияния экспорта из Китая в Азербайджан на деятельность коммерческих предприятий страны в рамках пандемии COVID-19, которая является одной из основных вызовов мировой экономики.

**Методология исследования** – В статье использованы методы индукции, дедукции, научной абстракции, логического обобщения, сравнительного и статистического анализа.

**Прикладная значимость исследования** – Хозяйствующие субъекты и коммерческие предприятия, осуществляющие взаимную торговлю в Китае и Азербайджане, могут использовать результаты упомянутых исследований в своей деятельности.

**Результаты исследования** – В рамках рассчитанного индекса интенсивности экспорта определены текущая ситуация и потенциальные направления развития экспорта из Китая в Азербайджан.

**Оригинальность и научная новизна исследования** – Оригинальность и научная новизна исследования заключается в систематическом анализе важных видов продукции, экспортируемых из Китая в Азербайджан в рамках пандемии COVID-19, и расчете индекса интенсивности экспорта между двумя странами.

***Ключевые слова: субъекты предпринимательства, индекс интенсивности экспорта, COVID-19, важный вид продукции, логистика, коммерческие предприятия.***

***Elshad Yagub MAMMADOV***
***Odlar Yurdu University, Head of the Department of Economics and Economic Relations,***
***doctor of economic sciences, professor***
***E-mail: elsad.mammadov@oyu.edu.az***

***Aslan Javid AZIMZADEH***
***Odlar Yurdu University, Lecturer of the Department of Economics and Economic Relations***
***E-mail: ezimzade.aslan@oyu.edu.az***

***Toghrul Alverdi FARZULLAYEV***
***PhD student of Azerbaijan University***
***E-mail: togrull@gmail.com***

# The impact of exports from China to Azerbaijan on the activities of commercial enterprises in the country

***Summary***

**The purpose of the study** – The main goal of the study is to analyze the impact of exports from China to Azerbaijan on the activities of commercial enterprises in the country within the framework of the COVID-19 pandemic, which is one of the main challenges to the global economy.

**Research methodology** – The article uses methods of induction, deduction, scientific abstraction, logical generalization, comparative and statistical analysis.

**Applied significance of the study** – Business entities and commercial enterprises engaged in mutual trade in China and Azerbaijan can use the results of the mentioned studies in their activities.

**Results of the study** – Within the framework of the calculated export intensity index, the current situation and potential directions for the development of exports from China to Azerbaijan were determined.

**Originality and scientific innovation of research**– The originality and innovation of research lies in the systematic analysis of important types of products exported from China to Azerbaijan as part of the COVID-19 pandemic, and the calculation of the export intensity index between the two countries.

***Key words: business entities, export intensity index, COVID-19, important type of product, logistics, commercial enterprises.***